UOT 94 (470)

# RUSİYA-ÇEÇENİSTAN MÜHARİBƏSİ HAQQINDA

**A.Ş.ŞAHMURADOV**
***Azərbaycan Dillər Universiteti***
***agil1965@mail.ru***

*Yenidənqurmanın başlanması ilə Rusiya Federasiyası Çeçen-İnquş Muxtar Respublikasında milli hərəkat fəallaşmış, müxtəlif millətçi təşkilatlar meydana gəlmişdi. Belə təşkilatlardan biri də, 1990-cı ildə yaradılmış çeçen xalqının ümummilli konqresi idi. Rusiya və Çeçenistan arasında meydana gəlmiş münaqişə açıq müharibəyə çevrilmişdi. Müharibə mülki əhali arasında böyük itkilərlə, terror aktları ilə müşayiət olunurdu. Rus hərbçilərinin hərbi uğurlarına baxmayaraq, Çeçenistanda tam qayda-qanun yaratmaq mümkün olmamışdır.*

**Açar sözlər:** Şimali Qafqaz, Çeçenistan, rus-çeçen müharibəsi

Regionun yerli xalqlarından olan çeçenlər qədim zamanlardan Şimali Qafqazda yaşamış, tarixləri ərzində müxtəlif dövlət birlikləri yaratmağa nail olmuşlar. Ərəb işğalları ərəfəsində dağlıq ərazilərdə güclü müdafiəsi, özlərinin sülalələri olan etnosiyasi birliklər yaradılmışdı. Monqol işğalları ərəfəsində Çeçenistan ərazisinin əsas hissəsi, o zaman regionda mövcud olmuş Alaniya dövlətinə daxil olmuşdu. Sonradan, XIV əsrin sonlarında çeçenlərin dövlət birlikləri Əmir Teymurun hücumları nəticəsində məhv edilmişdi. Bundan sonra çeçen cəmiyyətində formalaşmış teyp-tukxum sistemi XIX əsrədək mövcud olmuşdu. Bu sistem özünüidarə və ərazi-icma prinsipləri əsasında formalaşmış, bir və ya bir neçə kəndin daxil olduğu təşkilatlardan – teyp və tukxumlardan – ibarət idi. Teyp və tukxumların nümayəndələrindən təşkil olunmuş ali şura – Məxk-kxel də fəaliyyət göstərirdi (1, 176-185).

XV-XVI əsrlərdə mərkəzləşdirilmiş Rus dövləti yarandıqdan sonra Şimali Qafqazının işğalı prosesi başlamışdı. İşğala məruz qalmış ərazilər arasında çeçenlərin yaşadıqları ərazilər də vardı. Rusiya regionun içərilərinə doğru hərəkət etdikcə burada qalalar salır, ələ keçirilmiş ərazilərdə rusların məskunlaşdırılması həyata keçirilirdi. İmam Şamilin başçılığı altında dağlıların 1834-1859-cu illərdə ruslara qarşı apardıqları mübarizənin gedişində İmamət (İmam Şamilin yaratdığı teokratik dövlət) yaradılmış və Çeçenistan ərazisi də bu dövlətin tərkibinə daxil olmuşdu. Dağlılar hərəkatı məğlub olduqdan sonra Şimali Qafqaz tamamilə Rusiyadan asılı vəziyyətə düşmüşdü.

Rusiyada Sovet hakimiyyəti qurulduqdan sonra Çeçenistan əvvəlcə Terek, sonra isə Dağlı muxtar respublikalarının tərkibinə daxil edilmişdi. 1922-ci ildə Rusiya Federasiyasının tərkibində Çeçenistan Muxtar Vilayəti yaradılmışdı. On iki il sonra, 1934-cü ildə Çeçenistan və İnquşetiya muxtar vilayətləri Çeçen-İnquşetiya Muxtar Vilayətində birləşdirilmiş, 1936-cı ildə isə vilayətin əsasında Çeçen-İnquşetiya Muxtar Sovet Sosialist Respublikası meydana gəlmişdi. 1944-cü ildə çeçen və inquşlar tarixi vətənlərindən deportasiyası olunduqdan sonra bu respublika da ləğv edilmiş, lakin 1957-ci ildə isə deportasiya olunmuş xalqlar geri qayıtdıqdan sonra yenidən bərpa olunmuşdu (2, 93).

SSRİ-nin tərkibində olduğu müddətdə Çeçen-İnquşetiya Respublikası sosial-iqtisadi cəhətdən zəif inkişaf etmişdi. Sovet dövlətində həyata keçirilmiş uğursuz milli siyasət bu respublikada da çoxsaylı problemlər yaratmışdı. Kreml yerli əhaliyə etibar etmir və bu səbəbdən də, respublikaya rəhbərliyi Moskvanın təyin etdiyi və əsasən rus millətindən olan şəxslər həyata keçirirdilər. Respublika sənayesinin əsasını təşkil edən neft hasilatı və emalından əldə olunan gəlirlər ittifaq büdcəsinə daxil edilirdi. Təhsilin və səhiyyənin aşağı səviyyədə olması ciddi sosial problemlər yaradır, bir çox yaşayış məntəqələrində hətta məktəb və xəstəxana belə yox idi (3, 109).

M.S.Qorbaçovun başladığı "yenidənqurma" siyasəti Şimali Qafqaz xalqlarının, o cümlədən çeçen xalqının milli və dini oyanışına şərait yaratmışdı. 1990-1991-ci illərdə çeçenlər tərəfindən yaradılmış "Çeçen xalqının ümummilli konqresi" Çeçenistanın, inquşların formalaşdırdıqları "Niysxo" təşkilatı isə İnquşetiyanın suverenliyinə nail olmağı qarşıya məqsəd qoymuşdu. Xalq kütlələri tərəfindən müdafiə olunan bu təşkilatlar mitinq və nümayişlər təşkil edir, yerlərdə hakimiyyət funksiyalarını öz üzərlərinə götürməyə çalışırdılar. Etnik prinsipə əsaslanan dövlət qurumları yaratmaq cəhdləri Şimali Qafqaz xalqları arasında ziddiyyətlər meydana gətirmişdi. Hələ 1989-cu ildə Çeçen-İnquşetiya respublikasının paytaxtı Qroznıda keçirilmiş İnquş xalqının II qurultayında Çeçenistandan ayrı İnquşetiya Respublikasının yaradılması istiqamətində hazırlıq işlərinə başlanılmışdı (3, 50-51).

Hadisələrin bu cür inkişafı Çeçen-İnquşetiya respublikasının parçalanmasına doğru aparır, Moskva isə bu prosesin qarşısını almaqda aciz idi. İnquşlarla yanaşı çeçenlər də öz müstəqil dövlətlərini yaratmaq istiqamətində fəaliyyət göstərirdilər. 1990-cı ilin noyabrında Qroznıda çeçen xalqının qurultayı çağrılmışdı. Sovet ordusunda general-mayor rütbəsinə qədər yüksəlmiş ilk Çeçen olan Cövhər Dudayevin də iştirak etdiyi bu qurultayın sonunda Çeçen Respublikası Noxçi-Çonun dövlət suverenliyi haqqında sənəd qəbul olunmuşdu (4, 143). Bunun ardınca, 1990-cı il noyabrın 27-də Çeçen-İnquşetiya Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti Çeçen-İnquşetiya Respublikasının dövlət suverenliyi haqqında Bəyanat qəbul etmişdi (5, 32).

1991-ci il iyunun 8-də öz işinə başlamış Çeçen Xalqının Ümummilli Konqresini çeçenlərin tarixində mühüm hadisə hesab etmək olar. Məhz bu konqresdə Çeçen Respublikası Noxçi-Çounun dövlət müstəqilliyi, onun həm

SSRİ-dən, həm də Rusiyadan ayrılması haqqında qərar qəbul edilmişdi (4, 147). Bundan sonra C.Dudayevin rəhbərliyi altında Çeçenistan Respublikasının idarəetmə orqanları formalaşdırılmağa başlanılmışdı.

SSRİ prezidenti M.S.Qorbaçov ilə Rusiya prezidenti B.Yeltsin arasında gedən siyasi mübarizənin də Çeçenistanda separatizmin meydana gəlməsində böyük rolu olmuşdur. İttifaq hökumətinin zəifləməsində maraqlı olan B.Yeltsin və onun ətrafında formalaşmış Demokratik Rusiya bloku müxtəlif regionlarda antisovet qüvvələrin konsolidasiyasına yardım edir və onlarla əlaqə saxlayırdılar. Demokratik Rusiya blokunun fəal üzvlərindən olmuş Q. Burbulis, M. Poltaranin və A. Rutskoyun məsləhəti ilə C.Dudayev 1990-cı ildə Çeçen Xalqının Ümummilli Konqresinin lideri vəzifəsinə gətirilmişdi (6, 94). SSRİ-nin süqutundan sonra isə C.Dudayevin müstəqillik ideyasından əl çəkməməsi Rusiya ilə Çeçenistan arasında qarşıdurmaya səbəb olmuşdu.

1991-ci il oktyabrın 27-də C. Dudayev Çeçenistanın prezidenti seçilmiş, noyabrın 1-də isə o, "Çeçenistan Respublikasının suverenliyinin elan olunması haqqında" fərman imzalamışdı. Bir gün sonra, noyabrın 2-də Rusiya Xalq Deputatları Sovetinin V qurultayı Çeçenistanda keçirilmiş prezident seçkilərini qeyri qanuni elan etmişdi. Buna məhəl qoymayan C. Dudayev Çeçenistanın silahlı qüvvələrinin yaradılması prosesinə başlamış və tez bir zamanda 15 min nəfərlik nizami ordu yaratmağa nail olmuşdu (7, 458).

Çeçenistanda hadisələrin müharibəyə doğru inkişaf etməsini təkcə çeçen separatçılarının fəaliyyəti ilə bağlamaq düzgün olmazdı. Burada Moskvanın regionda apardığı geosiyasi oyundan irəli gələn maraqları da ciddi rol oynamışdı. Cənubi Qafqaz respublikalarını, xüsusilə Azərbaycan və Gürcüstanı öz təsir dairəsində saxlamaq məqsədilə regionda yeni bir münaqişənin yaradılması Kremlin maraqlarına daxil idi. Ərazisindən rus ordusunun çıxarılmasına nail olmuş, Xəzər dənizinin karbohidrogen ehtiyatlarını birgə istismar etmək üçün dünyanın iri neft şirkətləri ilə müstəqil danışıqlar aparan Azərbaycana, xarici siyasətində qərb vektorunun getdikcə üstünlük təşkil etdiyi Gürcüstana təzyiq göstərmək üçün Rusiyaya belə bir gərginlik ocağı lazım idi. Hadisələrin sonrakı gedişində Moskvanın Bakı və Tbilisini Çeçenistanda separatizmə dəstək verməkdə günahlandırması, onları müxtəlif vasitələrlə təhdid etməsi bu fikri təsdiq edir. Əks təqdirdə, rus hərbçilərinin çeçen döyüşçülərini nə üçün silahlandırdıqlarını izah etmək qeyri-mümkündür. Məsələn, 1992-ci ilin qışında Rusiyanın Çeçenistana yeridilmiş 12-ci motoatıcı təlim diviziyasından çeçenlərə 40 tank, 53 zirehli döyüş maşını, 153 artilleriya qurğusu, 18 "Qrad" reaktiv qurğusu, 40 min avtomat silahı və s. verilmişdi (7, 459).

1992-1994-cü illərdə Çeçenistanın statusu haqqında Moskva ilə Qroznı arasında aparılmış danışıqlar heç bir nəticə verməmişdi. 1994-cü il noyabrın 30-da Rusiya Federasiyasının prezidenti B.Yeltsin münaqişə tərəflərinə müraciət edərək 48 saat ərzində atəşi dayandırmağı, silahı yerə qoymağı, bütün silahlı birləşmələri buraxmağı, tutulmuş və təzyiq altında saxlanılan bütün insanları azad etməyi tələb etmişdi, əks təqdirdə o, Çeçenistan ərazisində

fövqəladə vəziyyət tətbiq etməklə hədələyirdi. T. Tolqurovun da qeyd etdiyi kimi, 48 saat ərzində yerinə yetirilməsi mümkün olmayan tələblər qoymaqla Moskva Şimali Qafqazda vəziyyətin stabilləşməsində maraqlı olmadığını nümayiş etdirirdi (8, 200).

Kremlin, rusiyameylli çeçen liderlərindən istifadə etməklə vəziyyəti nəzarət altına almaq cəhdləri də müsbət nəticə verməmişdi. Müvəqqəti Şuranın rəhbəri Avturxanovun, Milli Dirçəliş Hökumətinin başçısı Hacıyevin, hökumət başçısı Koşmanın, respublika başçısı Zavqayevin, Xalq Yığıncağının rəhbərləri Osmanov və Alavdinovun, müvəqqəti administrasiyanın rəhbəri Musalatovun və müxtəlif vaxtlarda ayrı-ayrı vəzifələri tutmuş digər siyasətçilərin fəaliyyəti heç bir nəticə vermədən sona çatmışdı (2, 94). Bu bir daha Çeçenistanda Kremlin sosial bazasının zəif olduğunu göstərirdi.

1994-cü il dekabrın 7-də Rusiya Federasiyası Təhlükəsizlik Şurası münaqişəni güc yolu ilə həll etmək haqqında qərar qəbul etmişdi. Qroznıya hücumda iştirak etmək üçün 38 min nəfər hərbçidən, 230 tankdan, 454 zirehli maşından, 388 top və minomyotdan ibarət hərbi qruplaşma yaradılmışdı. Buna baxmayaraq, dekabrın 31-də, Yeni il gecəsi Qroznı üzərinə hücuma keçmiş rus qoşunları güclü müqavimətlə qarşılaşmış, ağır itki verərək məğlubiyyətlə üzləşmişdilər. 1995-ci ilin fevralında ruslar daha böyük qüvvə ilə hücuma keçmiş, fevral-aprel aylarında aparılmış hərbi əməliyyatlar nəticəsində Çeçenistanın Qroznı, Qudermes, Arqun, Şali kimi əsas şəhərləri rus ordusunun nəzarətinə keçmişdi. Buna baxmayaraq, çeçen döyüşçülərinin müqavimətini tamamilə qırmaq mümkün olmamışdı. Aprelin ortaları üçün C.Dudayevin sərəncamında təkcə Vedeno, Nojay-Yurt və Şatoy rayonlarında 7 minədək hərbçi vardı.

Rusiya prezidenti B.Yeltsin aprelin 26-da "Çeçenistan Respublikasında vəziyyətin normallaşdırılması üçün əlavə tədbirlər haqqında" fərman imzalamışdı. Fərmana görə, könüllü olaraq silahı yerə qoyan və ağır cinayətlər törətməmiş çeçen döyüşçüləri cinayət məsuliyyətindən azad olunurdular. Fərman elan olunduqdan sonra Açxoy-Martan və Naur rayonlarında 400-dək çeçen döyüşçüsü silahı yerə qoymuşdu (7, 460-468). Prezident fərmanı, şübhəsiz ki, C.Dudayevin komandanlığı altında vuruşan qüvvələri parçalamaq məqsədi güdürdü.

1995-ci ilin may-iyun aylarında aparılmış hərbi əməliyyatlardakı məğlubiyyətlərdən sonra müharibə taktikasını dəyişən çeçenlər dağlıq ərazilərə çəkilərək kiçik qruplarla partizan müharibəsi aparmış, Çeçenistandan kənarda terror aktları törətməyə başlamışdılar. Ş.Basayevin 1995-ci ilin iyununda Stavropol diyarının Budyonovsk kəndində, C.Dudayevin kürəkəni S.Raduyevin 1996-cı ilin yanvarında Dağıstanın Qızlar şəhərində törətdikləri terror aktlarını buna misal göstərmək olar. Müharibənin bu mərhələsinin xarakterik xüsusiyyətlərindən biri də, ruslara qarşı keçirilmiş əməliyyatlarda əcnəbilərin, xüsusilə ərəb ölkələrindən çıxanların iştirak etməsi olmuşdur.

1996-cı il aprelin 22-də Qexi-Çu kəndi yaxınlığında C.Dudayev raket zərbəsi ilə öldürüldükdən vitse-prezident Zəlimxan Yandarbiyev Çeçenistana rəhbərlik etmişdi. Onun Moskvaya səfəri zamanı atəşin qarşılıqlı surətdə

dayandırılması haqqında razılığa gəlinsə də, buna əməl olunmamışdı. Avqust ayında baş vermiş qanlı döyüşlər nəticəsində Qroznı, Arqun, Qudermes və Şali şəhərləri yenidən çeçen döyüşçülərinin nəzarətinə keçmişdi. İtkilərin miqyasını nəzərə alaraq, B.Yeltsin rus qoşunlarının Qroznıda məğlub olduqlarını etiraf etmək məcburiyyətində qalmış və avqustun 10-nu Rusiyada milli matəm günü elan etmişdi. Çeçenistandakı rus qoşunlarının komandanı K.Pulikovski Qroznıya yeni hücum haqqında qərar versə də, Rusiya Təhlükəsizlik Şurasının katibi general A.Lebed bu qərarın ləğv olunmasına nail ola bilmişdi. Avqustun sonunda Xasavyurd şəhərində A.Lebed ilə Çeçenistan rəhbərliyi arasında, Qroznı ətrafında yerləşmiş iki briqada istisna olmaqla, federal qoşunların Çeçenistan ərazisindən çıxarılması haqqında razılaşma imzalanmışdı. Razılaşmaya görə, Çeçenistan respublikasının statusu 2001-ci ilin sonlarından gec olmayaraq müəyyənləşdirilməli idi. Bu razılaşma ilə 6 minə qədər rus hərbçisinin, əksəriyyəti dinc əhali olan 70-80 min çeçenin öldürüldüyü Birinci Çeçenistan müharibəsi sona çatmışdı. Rus qoşunları Çeçenistandan çıxarıldıqdan sonra burada keçirilmiş prezident seçkilərində qalib gələn A.Məshədov və Rusiya prezidenti B.Yeltsinin Rusiya və Çeçenistan arasında 1997-ci ilin mayında imzalanmış sülh müqaviləsində tərəflər bir-birinə qarşı heç vaxt güc tətbiq etməyəcəkləri barədə öhdəlik götürmüşdülər (7, 461-472).

Sülh müqaviləsinin imzalanması ilə Çeçenistanda sabitlik bərpa olunmadı. A.Məshədovun hakimiyyətinin legitimliyini qəbul etməyən Kreml 1999-cu ildə hərbi əməliyyatları bərpa edərək İkinci Çeçenistan müharibəsinə start vermişdi.

Yeni müharibənin başlanmasının əsas səbəbi kimi, 1999-cu ilin avqustunda Ş.Basayevin və iordaniyalı Xəttabın Dağıstana, yerli vəhhabiləri Rusiya əleyhinə qaldırmaq məqsədilə etdikləri hücum, Dağıstanda, Moskvada, Volqodonskda törədilmiş terror aktları göstərilirdi. Ancaq burada nəzərə alınması zəruri olan bir sıra məqamlar mövcuddur. Birincisi Dağıstana hücum edənlərin çoxu çeçenlər deyil, milliyyətcə dağıstanlılar olmuşdu, ikincisi Moskvada və Volqodonskda yaşayış binalarının məhz çeçen terrorçuları tərəfindən partladıldığını sübut edən konkret faktlar ortaya qoyulmamışdı (9, 94).

Moskvanın 1999-cu il 23 sentyabr tarixli qərarı ilə çeçen döyüşçülərinə qarşı mübarizə aparmaq və regionda vəziyyəti stabilləşdirmək üçün Çeçenistan ərazisində Qoşunların birləşmiş qrupu yaradılmış və dərhal da geniş miqyaslı hərbi əməliyyatlara başlanılmışdı. 2000-ci il fevralın əvvəllərində Qroznı yenidən rus ordusunun nəzarətinə keçmişdi. Federal qüvvələr bu mərhələdə müharibəni terrorizmə qarşı mübarizə adı altında aparırdılar. Çeçenistanın əsas yaşayış məntəqələri ələ keçirildikdən sonra, aprelin 18-də Rusiya rəhbərliyi Çeçenistanda ordu əməliyyatlarının sona çatdığını rəsmi olaraq bəyan etmişdi, lakin buna baxmayaraq, reallıqda bu əməliyyatlar davam etdirilirdi (7, 472-475).

Hərbi əməliyyatların bu mərhələsinin xarakterik xüsusiyyətlərindən biri Rusiya cəmiyyətində müharibəyə olan münasibətin kəskin şəkildə dəyişməsi ilə bağlı idi. Əgər 1995-ci ildə Rusiyada rəyi soruşulanların üçdə ikisi məsələnin hərbi yolla həllinin əleyhinə çıxmışdısa, 1999-cu ildə təxminən bir o qədər

insan müharibənin qələbəyədək davam etdirilməsinə tərəfdar olmuşdu (10, 101). Fikirlərdəki bu dəyişiklik bir tərəfdən Çeçenistan sərhədlərindən kənarda terror aktlarının törədilməsi və sadə insanların bu terrorun qurbanı olması, digər tərəfdən isə Rusiya kütləvi informasiya vasitələrində geniş antiçeçen təbliğatının aparılması ilə izah oluna bilər.

Mübarizə taktikasını dəyişən çeçen birləşmələri rus ordusu ilə açıq döyüşlərdən imtina edir, partizan müharibəsinə üstünlük verirdilər. Eyni zamanda, mübarizə vasitəsi kimi terrordan da geniş istifadə olunurdu. Çeçenlərin 2002-ci ilin oktyabrında Moskvada teatr mərkəzində, Şimali Osetiyanın Beslan şəhərində həyata keçirdikləri terror aktları bütün dünyada geniş əks-səda doğurmuşdu. 2004-cü il mayın 9-da Qroznının "Dinamo" stadionunda təşkil olunmuş bayram konserti zamanı törədilmiş partlayış nəticəsində Çeçenistanın Moskva tərəfindən qəbul edilmiş prezidenti Əhməd Kadırov və Respublika Dövlət Şurasının sədri Hüseyn İsayev öldürülmüşdü. Yeni prezident Ramzan Kadırovun dövründə çeçen silahlı birləşmələrinə qarşı mübarizə bir qədər də güclənmişdi. 2006-cı ildə Ə.Məshədov və Ş.Basayev də daxil olmaqla çeçen müqavimətinin rəhbərlərinin çoxu artıq məhv edilmişdi (7, 475-477). Rus ordusunun uğurlarına baxmayaraq, onların Çeçenistanda vəziyyətə tam nəzarət etdiklərini söyləmək çətindir. Yeni toqquşmalar, partlayışlar, terror aktları haqqında vaxtaşırı verilən məlumatlar regionda gərginliyin hələ də saxlanıldığını göstərir.

Rusiya-Çeçenistan müharibəsində islam faktorunun yeri və rolu ilə bağlı məsələlər də diqqət mərkəzində olmuşdur. Rusiya tərəfi problemin əsas mahiyyətini, mübarizənin Çeçenistanın statusu ilə əlaqədar olduğunu diqqətdən kənarda saxlayaraq, onu beynəlxalq terrorizmə, islam radikalizminə qarşı mübarizə kimi təqdim etməyə çalışır. Əslində, çeçenlərin "cihad", "müqəddəs müharibə" və s. dini terminalogiyadan istifadə etmələrinə baxmayaraq, onların dini müharibə apardıqlarını söyləmək çətindir, çünki çeçenlərin ruslara qarşı apardıqları müharibə Şimali Qafqazın digər müsəlman xalqları tərəfindən müdafiə olunmadı. Çeçenistanda islam radikalizminin mövcudluğuna gəldikdə isə, bu sonradan, rus hərbçilərinin müharibə qaydalarından kənar, sərt davranışlarına cavab olaraq meydana gəlmişdir. İsveçin Upsala universitetinin əməkdaşı S.Kornellin fikrincə, rus hərbçilərinin bütün müharibə qaydalarını qəddarcasına pozmaları və bunun faktlarla təsdiq olunması, çeçenlərin söylədikləri Rusiya islamın düşmənidir fikrinin əsaslı olduğunu göstərir. "Moskvanın məsələni yalnız güc yolu ilə həll etmək istəyi, həmçinin respublikanın dağıdılmış iqtisadiyyatının iki müharibə arasında bərpa edilməsinə vəsait ayırmaq istəməməsi Çeçenistanı beynəlxalq radikal islam hərəkatı düşərgəsinə itələyir. Başqa sözlə, Rusiya hadisələrin onun üçün ən pis ssenari ilə inkişaf etməsinə özü yardım etmişdir: islam radikalizmi onun öz ərazisində meydana gəlib konsolidasiya olunur" (11, 158-159). Görünür, Çeçenistanda dini radıkalizmin yayılması Moskvanın strateji planlarına daxildir, çünki burada islamın əsrlərlə mövcud olmuş liberal sufi təriqəti ilə, müharibə dövründə yayılmağa

başlamış vəhhabilik arasında ziddiyyətin olması məntiqi olaraq cəmiyyətin, o cümlədən müstəqillik tərəfdarlarının parçalanması ilə nəticələnmişdi.

Hərbi əməliyyatlarda iştirak etməklə cəmiyyətin müəyyən hissəsinin rəğbətini qazanmış vəhhabilər işsiz gəncləri öz tərəflərinə çəkir, onlara hərbi təlim keçərək ruslara qarşı əməliyyatlara cəlb edirdilər. Vəhhabilər Çeçenistanın siyasi həyatına da geniş nüfuz etmişdilər. 1996-cı ildə Çeçenistan prezidentinin səlahiyyətlərini icra etmiş Z.Yandarbiyev dünyəvi məhkəmələri ləğv edərək şəriət məhkəmələrinin yaradılması haqqında fərman vermişdi. Çeçenistan cinayət məcəlləsi Sudanın cinayət məcəlləsi əsasında hazırlanmışdı, vəhhabiliyin tərəfdarlarından İ.Həlimov, M.Uduqov, A.Xusainov və başqaları çeçen hökumətinə daxil olmuşdular. İnsan oğurluğu bəzi vəhhabilər üçün gəlir mənbəyinə çevrilmişdi. Vəhhabiliyin yayılmasına qarşı cəmiyyətdə geniş etirazın olması çeçenlərin bir xalq kimi radikalizmə meylli olmadığını göstərir. 1997-1998-ci illərdə Qroznıda vəhhabi-nazirləri işdən uzaqlaşdırmaq tələbi ilə mitinqlər keçirilmişdi. Prezident A. Məshədov da insan oğurluğunu mühakimə edərək, onun çeçen xalqının çoxəsrlik mənəvi-əxlaqi dəyərləri ilə ziddiyyət təşkil etdiyini bildirmişdi (12, 102-103).

İkinci Çeçenistan müharibəsi Rusiya ordusunun effektli, savadlı əməliyyatlar aparmaqda çətinlik çəkdiyini də üzə çıxarmışdı. Məsələn, əvvəlki müharibənin iki ili ərzində 4,3 min nəfər rus hərbçisi öldürülmüşdüsə, bu müharibənin altı ayı ərzində onların sayı 2,2 min nəfərə çatmışdı (10, 103). Müharibə Moskvanı ciddi maliyyə problemləri ilə də üzləşdirmişdi. Hərbi əməliyyatların aparılmasına hər ay çəkilən xərclərin miqdarı bəzi hesablamalara görə 160 milyon dollar (10, 105), digər hesablamalara görə isə 262 milyon dollar təşkil edirdi (9, 94).

Çeçen liderlərinin bütün səylərinə baxmayaraq Çeçenistan Respublikasının müstəqilliyinin beynəlxalq səviyyədə tanınmasına nail olmaq mümkün olmamışdır. Çeçenistan-Rusiya müharibəsində müxtəlif ölkələrin vətəndaşlarının iştirakına, çeçenlərin xarici dövlətlərdən maliyyə yardımları almaları barədə məlumatların yayılmasına, C.Dudayev və onun ardıcıllarının bir çox ölkələrin hökumət və qeyri-hökumət təşkilatları ilə əlaqələrinin olmasına, Rusiyanın Çeçenistanda apardığı hərbi əməliyyatların beynəlxalq birlik tərəfindən pislənməsinə, mühacirətdə olan çeçen liderlərinə ABŞ, Böyük Britaniya kimi ölkələrdə siyasi sığınacaq verilməsinə baxmayaraq, heç bir dövlət Çeçenistanı müstəqil dövlət kimi tanımamışdır, çünki dünya ölkələri Rusiya kimi iri dövlətlə əlaqələri inkişaf etdirməkdə daha maraqlı görünürlər.

2003-cü ildə Çeçenistanda keçirilmiş seçkilərində, əvvəllər Çeçenistanın müftisi olmuş və ruslara qarşı cihad elan etmiş, sonradan vəhhabiliyin yayılmasına etiraz edərək cihaddan əl çəkmiş, 2000-ci ildə isə Rusiya prezidenti tərəfindən Çeçenistan respublikası administrasiyasının rəhbəri təyin olunmuş Əhməd Kadırov prezident seçilmişdi. Çeçenistanda qayda-qanunun yaradılması üçün federal qüvvələrin iştirakını zəruri hesab edən Ə.Kadırov bildiirirdi ki, “Rus qoşunları olmadan mənim rayonumda mənim qanunum

olacaq, onların rayonunda onların qanunu. Biz bir-birimizə tabe olmayacağıq. Buna görə də yeni hakimiyyət qanuni yolla seçilməlidir və hökmən gücə arxalanmalıdır. Bu gün üçün bu güc Rusiya ordusudur" (2, 95). 2004-cü ildə Ə. Kadırov terror aktının qurbanı olmuşdur. 2004-2007-ci illərdə Alu Alxanov Çeçenistan prezidenti olmuş, 2007-ci ildən isə Ə. Kadırovun oğlu Ramzan Kadırov bu vəzifəni yerinə yetirir.

Hal-hazırda Çeçenistanda hərbi təşəbbüs R.Kadırov hakimiyyətinin və rus hərbçilərinin əlindədir. Respublikanın əsas strateji mərkəzləri rus ordusunun nəzarətindədir. Separatçıların əsas qüvvələri məğlub edilmişdir, onların geniş hərbi əməliyyatlar həyata keçirmək imkanları, demək olar ki, yoxdur. Eyni zamanda, çeçen silahlılarının tamamilə tərksilah olunduqlarını da demək olmaz, mübarizə diversiya və terror formasında davam etdirilir.

Regiondakı hadisələrin inkişafı bir mühüm məqamı da üzə çıxarmışdır: Çeçenistanı bundan sonra Rusiyanın adi bir subyekti vəziyyətinə qaytarmaq, burada rus qaydalarını tətbiq etmək qeyri-mümkündür. Respublikadakı rusların və digər xristian əhalinin əhəmiyyətli hissəsinin daimi yaşayış yerlərini tərk edərək Rusiyanın daha sakit regionlarına köçməsi Çeçenistanda bir tərəfdən rus mədəniyyətinin, digər tərəfdən xristian icmasının təsirini son dərəcə zəiflətmişdir. Hesablamalara görə təkcə 1995-ci ilin aprelinədək Çeçenistanı 300 min nəfərdən çox insan tərk etmişdi (6, 1999). Bunun əvəzində isə regionda çoxəsrlik tarixi köklərə malik olan şərq mədəniyyətinin, islami dəyərlərin cəmiyyət həyatındakı, ictimai proseslərdəki rolu xeyli artmışdır. Başqa sözlə, rus-çeçen müharibəsi nəticəsində Çeçenistanda, hətta demək olar ki, bütün Şimali Qafqazda yeni bir siyasi, sosoial-psixoloji vəziyyət yaranmışdır və Rusiya rəhbərliyi bunu nəzərə almalıdır.

Ümumiyyətlə, Rusiyanın regiondakı münaqişələrə münasibətdə siyasəti özünün ziddiyyətli olması ilə seçilir. Azərbaycan və Gürcüstan ərazilərindəki separatçı qüvvələrə açıq dəstək ifadə edən Moskva, Çeçenistanda qanuni və qeyri-qanuni vasitələrdən istifadə etməklə müstəqillik tərəfdarlarına qarşı sərt mübarizə aparır. Məsələlərə belə fərqli yanaşma Qafqazda ümumi təhlükəsizliyin təmin olunması yolunda ən böyük maneələrdəndir.

**ƏDƏBİYYAT**


1. Чеченская республика и чеченцы: История и современность: Материалы Всероссийской научной конференции. Москва, 19-20 апреля 2005. М.: Наука, 2006, 575 с.
2. Халмухаммедов А. Возможная стратегия урегулирования ситуации в Чеченской Республике // Центральная Азия и Кавказ, 2000, № 4 (10), с. 92-100
3. Костоев Б. Преданная нация. О некоторых уроках становления Ингушской Республики // Гуманитарный фонд Ингушетии. 1995, 111 с.
4. Гакаев Дж.Дж. Очерки политической истории Чечни. XX век. В двух частях. М.: ЧКЦ, 1997, 473 с.
5. Кравченко И.Н. Чеченский кризис: причины, характер, последствия (90-е годы XX века). Владикавказ: СОГУ, 2004, 143 с.
6. Здравомыслов А.Г. Межнациональные конфликты в постсоветском пространстве. М.: Аспект-Пресс, 1999, 286 с.

7. Шишов А.В. Схватка за Кавказ. XVI-XXI века. М.: Вече, 2007, 480 с.
8. Толгуров Т. Российская Федерация: о политике центра на Северном Кавказе (1994-1996) // Центральная Азия и Кавказ. 2000, № 1, (7), с. 197-203
9. Лапидус Г. Десять «заповедей», на которых строится российская политика в Чечне // Центральная Азия и Кавказ, 2000, № 4, (10), с. 110-120
10. Паин Э. Возможные варианты развития второй чеченской войны. - Центральная Азия и Кавказ. 2000, № 4 (10), с. 101-109
11. Корнелл С. Исламский фундаментализм как фактор российско-чеченского конфликта и нестабильности всего северо-кавказского региона // Центральная Азия и Кавказ. 2000, № 4 (10), с. 157-159
12. Матвеева А. Угроза исламизма в постсоветской Евразии // Центральная Азия и Кавказ. 1999, № 4 (5), с. 96-101

## О РУССКО-ЧЕЧЕНСКОЙ ВОЙНЕ

**А.Ш.ШАХМУРАДОВ**

### РЕЗЮМЕ

С началом перестройки в Чечено-Ингушской Автономной Республике Российской Федерации активизировалось национальное движение, возникли различные националистические организации. Одной из таких организаций стал, созданный в 1990 г. Общенациональный конгресс чеченского народа. Конгресс ставил своей целью создание независимого Чеченского государства. Конфликт, возникший между Россией и Чечнёй, переросло в открытую войну. Война сопровождалась большим количеством жертв среди мирного населения, террористическими актами. Несмотря на военнные успехи российских военных, окончательный порядок в Чечне пока не установлен.

**Ключевые слова:** Северный Кавказ, Чечня, русско-чеченская война

## ON THE RUSSIAN-CHECHEN WAR

**A.Sh.SHAKHMURADOV**

### SUMMARY

Since the beginning of reconstruction in the Chechen-Ingush Autonomous Republic of the Russian Federation the national movement intensified, various nationalist organizations emerged. One such organization was created in the 1990 National Congress of the Chechen people established in 1990. The congress aimed to create an independent Chechen state. The conflict between Russia and Chechnya turned into an open war. The war was accompanied by a large number of civilian casualties, acts of terrorism. Despite the successes of the Russian militants, the final order in Chechnya has not been established yet.

**Key words:** North Caucasus, Chechnya, Russian-Chechen war